Bəşəriyyətə qarşı amansız terror

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımın törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Sovet imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə bərpa edən Azərbaycan ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşadı.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi təcavüzü dünya tarixinə beynəlxalq hüquq normalarının kobudcasına pozulduğu faktlardan biri kimi daxil olub.

Azərbaycanlıların öz tarixi torpaqlarından qovulması prosesi sovet dövründə də davam etmiş, 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə öz tarixi torpaqlarında yaşayan 250 mindən çox azərbaycanlı yurd yerlərindən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. O illərdə Qarabağ ətrafında başlayan hadisələr - erməni ideoloqlarının "Dənizdən- dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir.

1988-ci ilin yanvarından etibarən erməni millətçiləri tərəfindən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlanmışdır. "Qarabağ və Krunk" komitələrinin, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər.

1992-ci ilin fevralında Xocalıda miqyasına və qəddarlığına görə bəşər tarixində misli görülməmiş daha bir soyqırımı aktı yaşanmışdır. Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədləri bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət strateji əhəmiyyətli maneələri aradan qaldırmaq, digər tərəfdən isə Xocalı şəhərini yer üzündən birdəfəlik silmək olmuşdur. Çünki Xocalı Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu, tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Xocalının qədim tarixi abidələri - siklopları, kurqanları həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi-mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi-mədəniyyət abidələrinin məhvi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki erməni silahlı dəstələri, keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək xalqımıza qarşı soyqırımı siyasəti həyata keçirilmişdir.

Xocalıda baş verənlərin soyqırımı olduğunu həmin dövrdə bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri də təsdiqləmişlər. Bu baxımdan, faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın "Libardion" qəzetinin əməkdaşı Jul Çerti Vaynerin qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını qorxulu yuxuya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi çoxlu müxtəlif ölkələrdə olduğunu, lakin Xocalı şəhərindəki kimi dəhşətli və tükürpədici mənzərələrlə rastlaşmadığını yazmışdır. Jurnalist "Libardion" qəzetində çap etdirdiyi "Erməni terrorizminin canlı şahidi oldum" sərlövhəli yazıda Xocalıda baş verənlərin əvvəlcədən yazılan ssenari olduğunu bəyan etmişdir.

Hələ 1995-ci ildə Xocalı soyqırımının 3-cü ildönümü zamanı Heydər Əliyev demişdir: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır və ən qanlı səhifəsidir".

Xocalı soyqırımının dünyada tanıdılması ilə bağlı "Xocalıya ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlər olduqca mühüm rol oynayıb.

"Xocalıya ədalət!" kampaniyası İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlayıb. İlk gündən başlayaraq kampaniya yüksək templə davam edir və aksiyaya dünyanın əksər ölkələrindən könüllülər qoşulur.

2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarını azad edən Azərbaycan xalqı milli maraqlarını təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu Qələbə ilə Azərbaycan tarixinin şərəfli səhifəsinin yeni qəhrəmanlıq salnaməsinin müəllifi oldu. Bu tarixi qələbə ilə Xocalı şəhidlərinin ruhları təsəlli tapdı. Soyqırımı qurbanlarının qanı yerdə qalmadı. Onların qisası döyüş meydanlarında alındı.

Xocalı soyqırımının otuzuncu ildönümü tamam olur. Azərbaycan xalqı heç vaxt Xocalı faciəsini unutmayacaq. Axı bu, bəşəriyyətə qarşı törədilmiş amansız cinayətdir.

Qədir ASLAN,
"Respublika".

Müharibələr bəşəriyyətə həmişə ağır bəlalar gətirmiş, insanları dözülməz məhrumiyyətlərə, əzab-əziyyətə düçar etmişdir. Bəşəriyyət tarixinə Xocalı soyqırımı ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi kimi daxil olub.

Tarixin qanlı səhifəsi

Xocalıda baş verənlər soyqırımı aktı olsa da, o zaman Azərbaycanda hakimiyyətdə olan qüvvələrin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən dünya ictimaiyyəti yetərincə məlumatlandırılmamışdır. Yalnız ümummilli lider Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıdandan sonra erməni millətçilərinin xalqımıza qarşı törətdiyi dəhşətli cinayətlərin miqyası, o cümlədən Xocalı soyqırımı barədə həqiqət dünya dövlətlərinə, beynəlxalq ictimaiyyətin nəzərinə çatdırıldı. 1994-cü il martın 1-də ulu öndər Heydər Əliyev Xocalı soyqırımı ilə əlaqədar fərman imzalamışdır. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 fevral - Xocalı Soyqırımı və Milli Matəm Günü elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti tərəfindən Fərman imzalanmışdır və hər il fevralın 26-da saat 17:00-da soyqırımı qurbanları bir dəqiqəlik sükutla yad edilirlər.

Ümummilli Liderimiz hər zaman Xocalı faciəsinə xüsusi həssaslıqla yanaşırdı. Ulu Öndər hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak edir, Xocalı soyqırımını kədər hissi ilə xatırlayırdı. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş ulu öndərimiz hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi adlandırmış Heydər Əliyev eyni zamanda, Azərbaycanın əsrlər boyu keçdiyi mübarizə, milli-azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir.

Məlum olduğu kimi, Prezident cənab İlham Əliyev yanvarın 28-də Xocalı faciəsinin otuzuncu ildönümü haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir. Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar. Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq".

Ölkəmizdə son illər Xocalı soyqırımının bütün dünyada tanınması istiqamətində geniş ideoloji-intellektual işlər görülmüşdür. Birinci vitse-prezident, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi səyi, Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 fevral - Xocalı Soyqırımı və Milli Matəm Günü elan olunmuş, bu barədə bütün beynəlxalq

"Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək üçün vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Gecə vaxtı dinc əhaliyə hücum etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir".

Heydər ƏLİYEV,
Ümummilli lider.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızı geri qaytardı. Möhtəşəm qələbə nəticəsində Qarabağımız artıq bizimdir. Bu haqq döyüşündə tarix yazan Azərbaycan ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının cəlladları da vardı. Tarixi qələbə qazanan ordumuz bu qətliamın günahsız qurbanlarının qisasını aldı. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

Xocalı naləsi, Xocalı harayı bəşər tarixinin ən dəhşətli faciəsi kimi heç vaxt yaddaşlardan silinməyəcəkdir. Xocalıda tökülən qanlar bu torpağın üstündə açılan çiçəklərin rəngidir. Xocalı faciəsi bizim qan yaddaşımızdır. Tarix heç nəyi unutmur. Gəlin, biz də Xocalını və xocalılıları unutmayaq.

M.MİRZƏ,
"Respublika".

Erməni faşizmi: yaralar qaysaq bağlamır

Çətindir, bir ailənin faciəsini dinləmək adamı çox incidir, yaşadıqları müsibət ürəyi şan-şan edir. Onların taleyinə erməni faşistlərinin vurduğu yara çox dərindir. İki oğlu şəhid, dördü isə əlil olan, ömür-gün yoldaşını, altı aylıq körpə nəvəsini, neçə-neçə yaxın qohum-əqrəbasını, əzizlərini itirən, odun-alovun içindən keçib gələn, sinəsi dağlı bir ananın həyat yolu nə qədər amansız bir düşmənlə üzləşdiyimizdən xəbər verir. Bu ağbirçək anani dinləməyin, ürək göynədən qəmli həyat hekayəsini qələmə almağın özü belə çətindir, sözlər sanki oda-alova bürünür. Onu dinlədikcə, dağdan ağır dərd yükünü zərif çiyinlərində, ürəyinin başında, gözlərinin didəsində necə daşıdığına heyrət edirsən.

Söhbət Xocalı rayonunun Meşəli kəndindən məcburi köçkün, qəhrəman ana Əntiqə Allahverdiyevadan gedir. Erməni işğalı nəticəsində doğma evindən, ocağından, yurd-yuvasından didərgin düşdükdən sonra sağ qalan ailə üzvləri ilə 105 saylı Bərdə Peşə Liseyinin yataqxanasında məskunlaşan Əntiqə ananın bir neçə il bundan əvvəl qonağı olmuşduq. Həmin vaxt başı müsibətlər çəkmiş ananın 75 yaşı var idi. Əntiqə ana deyirdi ki, hər gecə bu otaqda səhəri dirigözlü açır, dərddən kösöv kimi qaralmış taleyini kitab kimi vərəqləyir, itirdikləri əzizlərinin ruhu ilə söhbət edir. Sözünün əvvəli də, axırı da yurd həsrəti ilə bitirdi. Deyirdi ki, Allah ömür versə Xocalıya, əzizlərinin nigaran ruhlarının dolaşdığı Meşəli kəndinə qayıdacağı günü gözləyir. Elə bu yaşlı qadını yaşadan, yaralarına məlhəm olan, ona dözüm, tab verən də bu inam və arzudur. Hazırda həmin ailə Ağcakənddə yaşayır.

Əntiqə anadan erməni silahlı qüvvələrinin kəndlərinə hücum etdiyi günü, o müdhiş gecəni necə xatırlayırsınız deyə soruşduqda dərindən bir ah çəkdi, qəmli baxışları uzaqlara dikildi və ağır-ağır dilləndi:

- 1991-ci ilin ayazlı-şaxtalı dekabr gecəsi idi. Yeni ildən bizi cəmi on gün ayırırdı. Bayrama hazırlaşırdıq, ev-eşiyimizi bəzəmişdik. Ancaq nə biləydik ki, bayramımız qara gələcək. Ermənilər bizə dinclik vermirdilər. Gecə atışma səsinə oyandıq, onsuz da səksəkə içərisində idik. Əvvəllərdə atışma olurdu buna alışmışdıq, həmin gecə başlayan atışma isə çox dəhşətli idi. Pəncərədən baxanda gördüm ki, kəndin kənarındakı evlərdən bir neçəsi od tutub yanır. Adamların həyəcanlı səsi top mərmilərinin səsinə qarışmışdı. Böyük oğlanlarım könüllülərlə birlikdə kəndi müdafiə etməyə çalışırdılar. Uşaqların atası da onların yanında idi. Atılan güllələr uşaqlara dəyməsin deyə yastıqları pəncərələrin qabağına düzmüşdüm. Güllə altında birtəhər böyük gəlinimin atası Atlıxangilə getdim. Uşaqları bu odun-alovun içərisindən necə çıxarmaq barədə məsləhətləşmək istədim. Ancaq bu, mənim eveşiyimdən sonuncu çıxışım oldu. Atışma o qədər şiddətlənmişdi ki, daha geri qayıtmaq mümkün olmadı.

Söhbətin bu məqamında Əntiqə anani qəhər boğdu, qırıq-qırıq dediyi kəlmələr hıçqırıqlar içərisində itib batdı. Onun deyə bilmədiklərini qızı Zeynəb dilə gətirdi:

- Anam qudasıgilə gedəndən az sonra atam Müsül evə gəldi. Təlaş içərisindəydi, dedi ki, ermənilər kəndi mühasirəyə alıblar, birtəhər buradan çıxmaq, uzaqlaşmaq lazımdır. Yoxsa hamımız bu şərəfsizlərin əlinə keçərik. Evdən çıxanda qardaşım Vidadi də özünü yetirdi. O, çox cəsarətli və mərd oğlan idi, heç nədən qorxub çəkinən deyildi, nigarançılığı yalnız biz sarıdan idi. Ondan öyrəndik ki, anamı da artıq kənddən çıxarıblar. Bu yerdə Zeynəbi də qəhər boğur, danışa bilmir...

Onlar birtəhər evdən çıxsalar da uzağa gedə bilmirlər. Quduz güllələr canavar kimi ulayır, kəndə od yağırdı. Mal-heyvan saxladıqları tövlə və ot tayaları od tutub yanırdı. Heyvanların tükürpədən böyürtüsünə dözə bilməyən Müsül kişi birtəhər yaxınlaşıb tövlənin qapısını açmaq istəyir ki, onları xilas etsin. Lakin heyvanları alovun caynağından qurtara bilmir. Atəş səslərindən hiss olunurdu ki, ermənilər artıq kəndə giriblər.

Zeynəb sözünə davam edir:

- Kəndimizdəki polis bölməsinin yerləşdiyi zirzəmiyə çatdıq. Burda bizdən savayı 20-25 nəfər var idi. Əksəriyyəti də qadınlar və uşaqlarıydı. Hamımız vahimədəydik, bizi nə gözlədiyini bilmirdik. Zirzəmidən ermənilərin vəhşiliyini gözlərimizlə görürdük. binanın həyəti həmkəndlilərimizin meyitləri ilə dolu idi. Ağır yaralılar qan içində çabalayırdı, imdad diləsələr də onlara yaxın düşmək mümkün deyildi. Ahnalə səsləri göylərə bülənd olmuşdu. Bizim də oradan sağ-salamat çıxmağımıza ümid çox az idi. Ermənilər səsgücləndiriciləri ilə təslim olmağımızı tələb edirdilər. Yalandan deyirdilər ki, kim təslim olsa, onu salamat buraxacağıq. Ancaq biz fikirləşirdik ki, ölsək də bu murdarların əlinə keçməyək. Qardaşım Vidadi polis işçiləri ilə bizi qoruyurdu. Birdən gözümün qabağında yerə çökdü, ermənilər onu vurmuşdular, al-qanın içindəydi, özümü onun üstünə atdım, dili söz tutmadı və gözlərini əbədi yumdu.

Polislər bizə çox kömək etdilər, sağ qaldığımıza görə yerdə onlara, göydə Allaha borcluyuq. Onlardan biri, səhv etmirəmsə adı Azər idi, bizi kəndin lap kənarına qədər gətirdi və biz Kosalar kəndi istiqamətinə yolumuza davam etdik. Yolboyu ermənilər bizi atəşə tuturdular, itkilərimiz çox oldu, qonşumuz İsmayıl, onun ata-anasını öldürdülər, ağsaqqal Əvəz kişini və arvadını ermənilər diri-diri yandırdılar, qardaşımın bir yaşlı qızı Ayşən anasının qucağında donaraq öldü. Hamımız ayaqyalın, başıaçıq şaxtada, qarın üstüylə əzablı və qorxulu bir yol keçərək Kosalara çatdıq. Oradan bizi helikopterlə Ağdamın Şelli kəndinə apardılar.

Bayaqdan qızının dediklərinə qulaq asan Əntiqə ana hiss olunurdu ki, o günləri yada salanda əzab çəkir, içəridən qovrulur, çətinliklə olsa da dedi ki, uşaqlarımla həmin kənddə görüşdüm, baxdım ki, Vidadi yoxdur, soruşsam da cavab verən olmadı. Xəbər verdilər ki, Meşəlini ermənilərdən təmizləyiblər. Həyat yoldaşım Müsül də camaatla birlikdə kəndə qayıtdı ki, həlak olanlarımızın meyitini dəfn etsinlər. Erməni faşistləri meyitlərə də divan tutmuşdular. Kişi danışırdı ki, meyitlərin başı, qulaqları kəsilmiş, gözləri çıxarılmışdı. Çoxunu da yandırmışdılar. Vidadinin cəsədinin yerində bir ovuc kül tapan yoldaşım çox sarsılmışdı, özündə deyildi, bildirdi ki, mən öləndə oğlumun külünü sinəmin üstünə qoyarsınız. Az keçmədi ki, sapsağlam kişi əriyib çöpə döndü və rəhmətə getdi. İkinci oğlum Əli Xocalıda döyüşürdü, 1992-ci il fevralın 26-da itkin düşdü.

O faciəli günlərdən çətinliklə ayrılan Əntiqə ana dedi ki, Allaha çox şükür, indi çoxlu nəvəm-nəticəm var, ermənilərdən qisas alacaqları günü gözləyirdilər. Həmin qisas günü gəldi. Müzəffər ordumuz döyüş meydanında ermənilərdən bütün şəhidlərimizin qisasını aldılar, Qarabağ işğaldan azad edildi. Meşəli faciəsinə görə erməni faşizmini unutmamalıyıq, düşmən öz məkrli niyyətindən əl çəkmək istəmir, rüsvayçılıqla məğlub olsalar da başqalarının kölgəsində yenidən baş qaldırmaq istəyir, daha anlamır ki, başları "dəmir yumruq"la əziləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev AzərTAC-a müsahibəsində erməni faşizmini dirçəltmək xülyasında olanlara çox tutarlı cavab verib:

- Azərbaycan xalqı, öz yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Salman ALIOĞLU,
"Respublika".

Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş interaktiv plakat

Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür. Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası beynəlxalq əməkdaşlıq çərçivəsində Rusiya Federasiyası Orenburq Vilayətinin P-Pokrovka model kitabxanası ilə birlikdə "ТРАГЕДИЯ ХОДЖАЛЫ - 30. XOCALI FACİƏSİ - 30" interaktiv plakat hazırlayıb. İnteraktiv plakatın ideya müəllifi MKS-nin direktoru Lətifə Məmmədova, icraçısı isə P-Pokrovka kitabxanasının müdiri V.Filippovadır.

İnteraktiv plakatda Azərbaycan və rus dillərində verilən materiallarda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinin işğal olunması, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırım əks olunur.

Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin ifşa olunduğu interaktiv plakatda müxtəlif materiallardan, videoçarxlardan istifadə olunub. Azərbaycan Respublikası Ali Məhkəməsinin saytında verilən "Xocalı soyqırımı - XX əsrin faciəsi" materialında dünyada qəbul olunmuş beynəlxalq konvensiyaların, ümumbəşəri qanunların Xocalı faciəsi kimi soyqırımları pislədiyi, onların yolverilməz olduğu bildirilir. Materialın sonunda "Xocalı soyqırımı beynəlxalq cinayət kimi", "Xocalı soyqırımı dünyanın gözü ilə", "Xocalı soyqırımı şəhidlərinin ifadələrindən" adlı məqalələr də verilmişdir.

İnteraktiv plakatda Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin lentə aldığı videogörüntülərdən də istifadə olunub.

İllər keçsə də, tariximizin qan yaddaşında yaşayan "Xocalı faciəsi" heç vaxt unudulmayacaq.

Kamil İSMAYIL,
"Respublika".

Anım tədbiri keçirilib

Çağdaş tariximizin ən dəhşətli səhifələrindən olan Xocalı soyqırımından 30 il keçir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum edərək dinc əhaliyə qarşı misli görünməmiş cinayət törədib.

Azərbaycan Prezidenti İlham Əliyev 28 yanvar 2022-ci il tarixdə "Xocalı soyqırımının otuzuncu ildönümü haqqında" Sərəncam imzalayıb. Masallı Regional Mədəniyyət İdarəsi soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlayıb.

Tədbirlər planına uyğun olaraq Yardımlı şəhərinin Heydər Əliyev Mərkəzində "Bütün bəşəriyyətə qarşı törədilmiş cinayət" adlı anım tədbiri keçirilib. Tədbirdə mədəniyyət işçiləri, S.Abıyev adına Köryədi kənd tam orta məktəbinin müəllim və şagirdləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Vətən uğrunda canlarından keçib şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Heydər Əliyev Mərkəzinin direktoru vəzifəsini icra edən Zeynəb Məmmədzadə Xocalı soyqırımı haqqında ətraflı məlumat verib. Bildirib ki, Xocalı qətliamı Ermənistanın iki əsrdən çox Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi bu faciəni təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədib.

Mərkəzin əməkdaşı Elşən Abışov, Köryədi kənd tam orta məktəbinin müəllimi Elgün Ağamirzəyev Xocalı soyqırımı barədə danışıb. Vətən müharibəsinin gedişində Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, Azərbaycanın silahsız, əliyalın, dinc əhalisinə qarşı qanlı cinayətlər törətmək Ermənistanın həyata keçirdiyi dövlət siyasətidir. 44 günlük müharibədə rəşadətli Azərbaycan Ordusu Xocalı şəhidlərinin də qanını yerdə qoymadı. Düşmən ordusunu darmadağın edərək parlaq qələbə qazandı, doğma torpaqlarımızı işğaldan azad etdi.

Çıxışlarda qeyd edilib ki, Xocalı soyqırımına beynəlxalq miqyasda hüquqi qiymət verilməli, bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar. Xalqımız Xocalı faciəsini heç vaxt unutmayacaq. Bugünkü və gələcək nəsillərə də qan yaddaşımız olan faciəni unutmamaq tövsiyə edilib.

Anım mərasimində Xocalı soyqırımından bəhs edən "Ümid işığı" filmi nümayiş olunub.

Əlisəfa HƏSƏNOV,
"Respublika".